BEYNƏLXALQ MÜNASİBƏTLƏRİN TƏHLİLİ MƏRKƏZİ

TƏHLİL

# İraqda parlament seçkiləri: Seçkilər öncəsi siyasi rəqabət və məzhəb balansı

Lalə Xəlilzadə

Mirzə İbrahimov 8, Bakı, AZ1005, Azərbaycan

(+994 12) 596-82-39, (+994 12) 596-82-41

E-mail: www.aircenter.az, info@aircenter.az

NOYABR 2025

# İraqda parlament seçkiləri: Seçkilər öncəsi siyasi rəqabət və məzhəb balansı

- **Bu seçkilər 2003-cü ildən etibarən keçiriləcək yeddinci parlament seçkisi olacaq;**
- **Seçkilər öncəsi ölkədə etiraz və boykotlar davam edir;**
- **İraq türkmanları tətbiq edilən kvota sisteminə etiraz edir;**
- **Ölkədə geniş təsir gücünə malik Sadr hərəkatı seçkiləri boykot edir;**
- **Seçkilərdə əsas namizəd çoxluğu şiə partiyaları arasında müşahidə olunur.**

2025-ci il noyabrın 11-də İraqda keçirilməsi planlaşdırılan parlament seçkiləri ölkənin müasir siyasi tarixində mühüm mərhələ kimi dəyərləndirilir. Bu seçkilər 2003-cü ildə Səddam Hüseyn rejiminin devrilməsindən sonra keçiriləcək yeddinci parlament seçkisi olacaq. 329 yerlik parlamentdə təmsil olunmaq uğrunda 37 siyasi ittifaq, 38 siyasi partiya və 80 müstəqil namizəd olmaqla, 7 769 namizəd mübarizə aparacaq. Səsvermə elektron sistem və biometrik kart vasitəsilə həyata keçiriləcək.

Qeyd edək ki, 320 deputat birbaşa xalq səsverməsi ilə müəyyən ediləcək, əlavə 9 yer isə ölkədəki etnik və dini azlıqlar üçün kvota prinsipi əsasında ayrılıb (xristianlar – 5, feyli kürdləri – 1, sabeilər – 1, şəbəklər – 1 və yezidilər – 1).[1]

Qeydiyyatdan keçmiş 21 milyondan artıq seçicinin iştirakı gözlənilən bu seçkilər həm də İraqda seçici fəallığının və ictimai etimadın səviyyəsini ölçmək üçün mühüm proses olacaq.

Seçkilər İraqın 18 vilayəti üzrə aparılacaq. Vilayətlər üzrə namizəd və seçici sayının nisbəti bərabər paylanmadığı üçün seçki prosesində müəyyən disbalans müşahidə olunur. Belə ki, bəzi vilayətlərdə namizəd sayı çox, seçici sayı isə nisbətən az olduğundan bir namizədə düşən seçici sayı aşağı olur. Digər vilayətlərdə isə, əksinə, seçici sayı yüksək, namizəd sayı azdır və bu da bir namizədə düşən seçici sayının artması deməkdir. Bu vəziyyət vilayətlər arasında namizəd-seçici nisbətində əhəmiyyətli fərqlərin yaranmasına gətirib çıxarır və seçkilərin bərabər təmsilçilik

[1] https://data.ipu.org/parliament/IQ/IQ-LC01/

prinsipi baxımından müzakirə mövzusuna səbəb olur, bəzən isə boykotlara kimi gətirib çıxarır.[2]

İraqda parlament seçkiləri öncəsi əsas rəqabət ölkədəki şiə, sünni və kürd partiyaları arasında cərəyan edir. 140 mandata sahib olan şiə partiyaları hökumətin formalaşmasında mühüm rol oynamağı hədəfləyir. Qeyd edək ki, İraqın Baş naziri şiə partiyalarından, prezident kürdlərdən, parlament sədri isə sünni partiyalardan seçilir.

## Şiə partiyaları

Seçkilərdə ən böyük rəqabət ölkənin şiə partiyaları arasında müşahidə olunur. Bağdad daxil olmaqla, 10 əyalətdə ümumilikdə 180 yer uğrunda 10-dan çox siyasi partiya və koalisiya mübarizə aparır. Milli Seçki Monitorinq Mərkəzinin sentyabrın sonunda keçirdiyi iki sorğunun nəticələrinə görə, Yenidənqurma və İnkişaf Koalisiyasının 51 mandatla birinci, Prioritet Alyansın 42 mandatla ikinci, Hüquq Dövləti partiyasının 28 mandatla üçüncü yeri tutacağı gözlənilir. Sorğunun nəticələrinə görə, Yenidənqurma və İnkişaf koalisiyasının ölkə daxilində və şiə əhali arasında ən çox səs toplayacağı proqnozlaşdırılır. [3]

Bağdad həm Şiələr üçün siyasi dayaq nöqtəsi, həm də rəqabətin mərkəzi sayılır. Təxminən 3 min namizədin iştirak etdiyi bu vilayətdə 71 mandat və 4,4 milyon seçici mövcuddur və bu, şiələrin diqqətini əsasən bu bölgəyə yönəldir. Bağdaddan sonra şiələr Bəsrə, Nəcəf və Kərbəlada rəqabət aparırlar. Bu dörd vilayət ümumilikdə 7,5 milyon seçiciyə malikdir və ölkə üzrə seçici bazasının təxminən 35 faizini təşkil edir. Bu baxımdan şəhər və vilayətlər üzrə seçki dinamikasını nəzərdən keçirək:

**Bağdad.** İraqın ən sıx məskunlaşdığı əyaləti olan Bağdadda 71 yer uğrunda 2298 namizəd mübarizə aparır. 4,314,866 səsvermə hüququna malik Bağdadda hər bir namizədə cəmi 1877 seçici düşür.

**Mosul.** Namizədlərin sayına görə Bağdaddan sonra ikinci yerdə Mosuldur. Bu vilayətdə parlamentdəki 34 yer uğrunda 1 047 namizəd mübarizə aparır. Ümumilikdə Mosulda 2 102 429 nəfər seçici səsvermə hüququna malikdir.

**Bəsrə** və **Diqar.** Bu əyalətlərdə eyni sayda – 571 namizəd – rəqabət aparır. Lakin seçici sayı bu bölgələrdə fərqlənir: Bəsrədə hər bir namizədə orta hesabla 2 842 seçici düşdüyü halda, Diqarda bu göstərici 1 994 nəfərdir. Bu fərq, əyalətlərin seçici sayının

2 https://www.rudaw.net/turkish/middleeast/iraq/201020251

3 https://almutalee.com/news/الانتخابات-العراقية-على-صفيح-ساخن-غياب-الصدر-يفتح-الطريق-للتحالفات-

və demoqrafik göstəricilərinin seçkilərin nəticələrinə potensial təsirini ön plana çıxarır.[4]

Digər vilayətlər üzrə namizədə düşən seçicilərin sayı belədir:

- Kərkük: 3817 seçici

- Anbar: 3860 seçici

- Divaniyyə: 2576 seçici

- Nəcəf: 2686 seçici

- Babil: 2391 seçici

- Diyala: 2936 seçici

- Səlahəddin: 2909 seçici

- Kərbəla: 2916 seçici

- Maysan: 4362 seçici

**Sünni partiyaları**

Ölkədə dörd əsas sünni partiyası var:

1 Məhəmməd Halbusinin rəhbərlik etdiyi **Taqaddum**

2.Müsənna Əs-Samarinin rəhbərlik etdiyi **Azm**

3.Hamis Hancərin rəhbərlik etdiyi **Siyadə**

4.İbrahim Namisin rəhbərlik etdiyi **Tavafuq**

Ölkədəki digər partiyalarda olduğu kimi, sünni partiyalar arasında da rəqabət müşahidə edilir. Azm İttifaqının üzvü Əhməd Əd-Diləymi Taqaddum partiyasından olan Ənbar valisini Azm tərəfdarlarının Qərbi Ənbarda fəaliyyətinə mane olmaqda günahlandırıb. Taqaddumun sözçüsü Məhəmməd Əl-Ciburi isə partiyasının sünniləri

[4] https://aawsat.com/العلوم-العربي/المشـــرق-العـــربـــي/5196104-هل-تُعيد-«معركة-بغداد-الانتخابية»-رسم-خريطة-النفوذ-بين-المكونات-العراقية؟

ən yaxşı şəkildə təmsil etdiyini və İraq siyasi səhnəsində güclü mövqeyə sahib olduğunu vurğulayıb.

Azm və Tavafuq ittifaqları tək partiyalı hakimiyyətin sonlandırılması və bölgədə ədalətli təmsilçiliyin təmin olunmasını hədəfləyir. Ənbar vilayətindəki 15 mandat uğrunda Sünni siyahılar arasında ciddi rəqabət mövcuddur. Siyadə partiyasının üzvü Ammar Əl-Əzavi isə seçkilərin tək partiyalı hakimiyyət və qərəzli tətbiqlərə son qoymaq baxımından əhəmiyyətini vurğulayır.

**İraq Kürdüstan Regionu**

İraqın mərkəzi və cənub vilayətlərində formalaşan seçki rəqabəti və siyasi dinamikanın oxşar forması Kürdüstan regionunda da özünü göstərir. Bura bir namizədə düşən seçici sayı baxımından bütün İraq üzrə ön sıralarda yer alır. Bu göstəriciyə görə:

- **Duhok.** Kürdüstan regionu üzrə hər namizədə düşən seçici sayına görə Duhok vilayəti ilk yerdə qərarlaşır. Burada 12 yer uğrunda 59 namizədin rəqabəti müşahidə olunur və bu da hər bir namizədə orta hesabla 13 200 seçici düşməsi deməkdir. Ümumilikdə isə Duhokda 778 846 seçici səsvermə hüququna malikdir.

- **Ərbil.** Kürdüstan regionunun inzibati mərkəzi olan Ərbil vilayətində parlamentdəki 16 yer uğrunda 108 namizəd mübarizə aparır. 1 milyon 87 min seçicinin iştirak edəcəyi bu əyalətdə hər bir namizədə orta hesabla 10 072 seçici düşür.

- **Süleymaniyyə.** Süleymaniyyə vilayətində isə 18 mandat uğrunda 136 namizədin yarışacağı gözlənilir. Buradakı 1 milyon 201 min 658 seçici arasında hər namizədə düşən seçici nisbəti təxminən 8 835-dir.[5]

Qeyd edək ki, İraq Kürdüstan Regional Hökuməti ərazisində beş əsas siyasi partiya fəaliyyət göstərir.

1. **Kürdüstan Demokratik Partiyası** - Məsud Bərzaninin rəhbərlik etdiyi bu partiya Ərbil və Duhok vilayətlərində, eləcə də Neynəva və Kərkükdə namizədliyini irəli sürür.
2. **Kürdüstan Vətənpərvərlər Birliyi -** Bafel Təlabaninin rəhbərlik etdiyi bu partiya əsasən Süleymaniyyə və Kərkük vilayətlərində fəaliyyət göstərir.

[5] https://shafaq.com/en/Report/The-Kurdish-spine-of-Iraq-s-elections-Unity-tested-by-division

**3. Dəyişiklik Partiyası -** əsasən Süleymaniyyədə mərkəzləşib.
**4. Kürdüstan İslam Birliyi -** Kərkük və Ərbildə fəaliyyət göstərir.
**5. İslami Dəvət Partiyası -** Kürdüstan Regionunun məhdud ərazilərində fəaliyyət göstərir.

**Seçkilərdən öncə etiraz və boykotlar**

**Türkmanlar -** İraq Türkman Cəbhəsi türkmanları təmsil edən əsas siyasi qüvvə olaraq, tətbiq olunan kvota sisteminə etiraz edir. Cəbhə Ərbil, Süleymaniyə və Kərkük bölgələrində müstəqil siyahılarla, Mosul, Diyala, Səlahiəddin və Bağdad bölgələrində isə digər siyahılarla seçkilərdə iştirak edəcəyini açıqlayıb.

İraq Türkman Cəbhəsinin Siyasi Bürosunun üzvü Aydın Maruf kvota sisteminin təsirsiz olduğunu bildirərək, bu şəkildə seçkilərə qatılmaqdan imtina etdiklərini vurğulayıb. O, seçki sistemi və səsvermə ilə bağlı deyib: *"Seçicilər vahid seçki dairəsinin tərəfdarı deyillər; onlar xüsusi seçki qutularında səs vermək istəyirlər".*[6]

Qeyd edək ki, 329 yerlik İraq parlamentində seçicilərə doqquz kvota yeri ayrılıb: Mosulda yezidi kürdləri üçün bir yer, eyni əyalətdə Şəbək kürdləri üçün bir yer, Vasitdə Feyli kürdləri üçün bir yer, Bağdadda Sabeilər üçün bir yer və xristianlar üçün beş yer. Beş xristian yeri Ərbil, Duhok, Kərkük, Mosul və Bağdad əyalətləri arasında bölüşdürülüb. Seçki qanunvericiliyinə görə, İraq boyunca seçicilər xristian kvotası namizədlərinə səs verə bilərlər və bu, yarışı daha da şiddətləndirir.

**Sadr Hərəkatı -** Ölkədə seçkilər öncəsi narazı qüvvələrdən biri də Sadr hərəkatının rəhbəri Muqtəda Əs-Sadrdır. Ölkədə geniş təsir gücünə malik şiə lideri Müqtəda Əs-Sadr seçkiləri boykot edəcəyini açıqlayıb. O, qeyd edib: “Seçkilərə inanmırıq. Ölkə olaraq irəliyə deyil, geriyə gedirik. Səddam dövründə ən azı bir prezident var idi, indi 100 Səddam var”.

Küçələrdə namizəd afişalarının çoxluğunu tənqid edən Sadr namizədlərin posterlərə xərclədikləri pulları kasıblara paylamalarının daha məqsədəuyğun olduğunu bildirib. O, əksər namizədlərin seçki proqramının belə olmadığını vurğulayıb.[7]

Qeyd edək ki, bu, Sadrın ilk etirazı deyil. O, ölkədə keçirilən öncəki seçkiləri də boykot etmiş, etirazlar şiddətlənərək Sadr tərəfdarlarının hökumət binalarına hücumuna kimi gətirib çıxarmışdır.

---

[6] https://www.rudawarabia.net/arabic/middleeast/iraq/18102025
[7] https://www.alarabiya.net/arab-and-world/iraq/2025/11/02/اعلم-ان-القرار-صعب-الصدر-يجدد-موقفه-بمقاطعة-الانتخابات

**Nəticə**

İraqda məzhəb və etnik mənsubiyyətin siyasətdə hələ də əsas rol oynadığı ölkədir. 2003-cü ildən, Səddam Hüseyn rejiminin devrilməsindən bəri mövcud olan **muhasasa ("hökumət və hakimiyyətin etnik və dini qruplar arasında bölüşdürülməsi" )** sistemi ölkədə siyasi gücün bölüşdürülməsini müəyyən edir. Bu sistemin məqsədi ilkin olaraq çoxtərəfli təmsilçiliyi təmin etmək olsa da, zamanla korrupsiya, qeyri-şəffaflıq və klientelizm üçün zəmin yaratmışdır. Nəticədə, ölkədə siyasi dəyişikliklərin əhəmiyyətli hissəsi formal xarakter daşıyır və əsas strukturlar köhnə qaydada qalır.

Buna baxmayaraq, 2025-ci il parlament seçkiləri İraq üçün həm imkan, həm də sınaq olması baxımından əhəmiyyət daşıya bilər. Seçkilərin nəticəsi ölkənin siyasi sabitliyi, islahatların həyata keçirilməsi və beynəlxalq münasibətlərdə mövqeyinin güclənməsi baxımından önəmli siqnallar verə bilər. Əgər əhali seçkilərdə aktiv iştirak edərsə, bu, hökumətin xalq mandatını gücləndirərək siyasi legitimliyi artıracaq, yeni siyasi elitaların formalaşmasına şərait yaradacaq.

Məhəmməd Şia Əs-Sudani hökumətinin həyata keçirdiyi iqtisadi inkişaf proqramları və xarici investisiyaların cəlbi kimi təşəbbüslər, xüsusilə gənclər üçün iş imkanlarının yaradılması, ölkədəki sabitliyin və islahatların mümkünlüyünü göstərir. Lakin muhasasa sistemi olduğu kimi qaldıqca, bu seçkilər siyasi quruluşu əsaslı şəkildə dəyişdirməyəcək və köhnə sistemin yeni simalarla davam etməsini təmin edəcək. Bütövlükdə 2025-ci il seçkiləri İraq üçün ölkənin demokratik təmsilçilik səviyyəsini göstərəcək, həm daxili, həm də beynəlxalq siyasətdə ölkənin istiqamətini müəyyənləşdirəcək kritik bir mərhələ sayıla bilər.

**Müəllif: Lalə Xəlilzadə, Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin baş məsləhətçisi**